**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SADIQOVA SƏBİNƏ SABİR qızı**

# AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMİ
**(sənaye istehsalı timsalında)**

**5308.01 – "Ümumi iqtisadiyyat"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**İmran Əzim oğlu Mehdiyev** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Pəri Əmirəhməd qızı Həsənova**<br><br>iqtisad üzrə fəlsəfə doktoru<br>**Kəmalə Seyfulla qızı Dadaşova** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası** |

Müdafiə "___" ___________ 2018–ci il tarixdə saat____da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.02.018 Birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _____________ 2018-ci ildə göndərilmişdir.

**FD.02.018 Birləşdirilmiş dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d., dosent:** **H.S.Şamilova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və onun dünya iqtisadiyyatına inteqrasiyası ilk növbədə onun malik olduğu təbii və iqtisadi potensialdan daha səmərəli istifadə olunması ilə səciyyələnir. Bu strateji hədəfə nail olmaq məqsədilə dövlətin qeyri-neft sektorunun inkişaf strategiyası xüsusi yer turur. İqtisadiyyatın şaxələndirilməsi və onun hormonik (tarazlı) inkişafı qeyri-neft sektoru strategiyasının ana xəttini təşkil edir. Qeyri-neft sektorunun inkişafında qeyri-neft sənaye istehsalı xüsusi yer tutur. Dövlət tərəfindən qeyri-neft sənayesinin inkişaf etdirilməsinə ardıcıl olaraq investisiya qoyuluşları həyata keçirilir. Beləki, ÜDM 2017-ci ilin göstəricisində artım müşahidə edilib, qeyri-neft sektoru üzrə real artım tempi 2,7% təşkil edib, qeyri-neft sektorunun ÜDM-də payı 62,8%-ə çatıb. Onu da vurgulamaq lazımdır ki, Azərbaycan iqtisadiyyatında sənaye sektoru iqtisadiyyatın aparıcı qüvvəsidir və bu baxımdan Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı işlənib hazırlanmış və həyata keçirilir. Bir daha qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Strateji Yol Xəritəsində də müasir tipli sənaye parklarının, sənaye məhəllələrinin (qovşaqlarının) yaradılması stratrgiyası və onun ölkənin bir sıra regionlarında inkişaf etdirilməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir. Təsadüfi deyildir ki, Ölkə başçısı, cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli iqtisadiyyata çevrilməsi strategiyasını daim vurğulamış, bu məsələlərin hər zaman diqqət mərkəzində olmasını bildirmiş, bir daha ölkədə rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılmasına daha çox ehtiyac olduğu məsələsini irəli sürmüşdür.

Dünya iqtisadiyyatına inteqrasiya, əlverişli rəqabət şəraitinin yaradılması bütövlükdə Azərbaycanın iqtisadiyyatının, ayrı-ayrı sahələrində istehsal olunan məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsini şərtləndirir.

Artıq ölkə iqtisadiyyatında sənaye, kənd təsərrüfatı, tikinti və digər istehsal sahələrinin məhsullarını rəqabətə davamlı məhsullar kimi hesab etmək olar. Deməli, ölkədə iqtisadiyyatın ayrı-ayrı sahələrinin qlobal bazara rəqabətə davamlı məhsul çıxarılmasını, bazarda müəyyən seqmentə sahib olmasını və öz mövqelərini daim möhkəmləndirməsini uğurlu bir hadisə kimi qeyd etmək olar.

Mövzunun aktuallığı və onun əsas istiqamətlərini səciyyələndirən arqumentlərə aşağıdakıları aid etmək olar:

- Ölkə iqtisadiyyatının inkişaf strategiyasında təbii resursların ixracından rəqabətqabiliyyətli son məhsulların ixracına daha çox üstünlük verilməsi;
- Dövlətin sənaye siyasətinə uyğun olaraq ölkənin rəqabətqabiliyyətli sənaye istehsalının strukturunun formalaşdırılması;
- "Müqayisəli üstünlüklər" prinsipinə əsaslanaraq prioritet üstünlüyə malik olan yeni sənaye sahələrinin yaradılması və onun gələcək istehsal imkanlarının artırılması;
- Ölkədə idxalı əvəz edə biləcək sənaye məhsullarının istehsalının artırılması və xarici bazarlarda onların təmsil olunması vəziyyəti;
- Azərbaycanın sənaye istehsalında müasir innovasiya texnologiyaları əsasında məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsinin əsas istiqamətlərinin müəyyən olunması.

Yuxarıda göstərilən mühüm vəzifələrin yerinə yetirilməsini təmin etmək məqsədilə geniş miqyaslı struktur və institusional dəyişikliklər edilməli, iqtisadiyyatın strukturunda ciddi dönüş yaradılmalı və nəhayət mükəmməl təşkilatı-iqtisadi mexanizimlər hərəkətə gətirilməlidir. Bu məsələlərin elmi-nəzəri və praktiki formada həll olunması iqtisadçı-alimlər qarşısında mühüm vəzifələr qoyur.

Məhz yuxarıda qeyd olunan cəhətlər mövzunun bir daha ölkə iqtisadiyyatı üçün aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə vəziyyəti.** İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin formalaşması və davamlı sosial-iqtisadi inkşafın təmin edilməsi məsələləri dövlətin iqtisadçı alim və mütəxəssisləri, istehsalat menecerlərinin daim diqqət mərkəzindədir. Bu problemə dair müxtəlif iqtisadi məktəblərin nümayəndələrinin və müasir iqtisadçı alimlərin bir çox əsərləri dərc edilmişdir.

Rəqabət və ayrı-ayrı sahələrin rəqabətqabiliyyətliliyi problemi məşhur iqtisadçılardan A.Smit, K.Marks, A.Marşall, MDB məkanında V.V.Kulikov, O.V.Mixaylov və digərlərinin əsərlərində araşdırılmışdır.

Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinin müxtəlif aspektləri iqtisadçı-alimlərdən Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, T.N. Əliyev, İ.Ə. Mehdiyev, R.İ.Quliyev, R.T.Həsənov, R.P.Sultanova, Q.Ə.Səfərov, M.A.Məmmədov, Ş.M.İbrahimov, P.Ə.Həsənova, K.S. Dadaşova və digərlərinin elmi əsərlərində tədqiq olunmuşdur.

Aparılmış tədqiqatların əhəmiyyətini azaltmadan qeyd etmək olar ki, bu gün qlobal iqtisadi proseslər Azərbaycan iqtisadiyyatı qarşısında rəqabət qabilliyətinin yüksəldilməsi problemlərinə yeni yanaşma tələb edir. Belə ki, rəqabətqabiliyyətlilik, bu problemlə əlaqədar beynəlxalq konsepsiyalar, Azərbaycan iqtisadiyyatının sahə quruluşu və onun təkmilləşdirilməsi,

ölkənin rəqabət strategiyası, rəqabətqabiliyyətinin yüksəldilməsi konsepsiyası, sosial-iqtisadi inkişafın innovasiya modeli, rəqabətqabiliyyətinin yüksəldilməsinin təşkilati-iqtisadi mexanizmləri məsələləri tam dolğunluğu ilə işlənilməmiş, bu sahədə müəyyən boşluqlar mövcuddur. Məhz bütün bunlar ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi probleminə sistemli yanaşma tələb edir ki, bu da tədqiqat mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin **məqsədi** rəqabətqabiliyyətlilik nəzəriyyələrinin və konsepsiyalarının əsasında ümumiləşdirilməsi, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə dair bir sıra təklif və tövsiyələrin irəli sürülməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı elmi və təcrübi **vəzifələr** qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- rəqabət qabiliyyətinə dair nəzəriyyələrə və konsepsiyalara tarixi-genetik və müasir konteksdə yanaşılması və ümumi nəticələrin çıxarılması;
- iqtisadiyyatin dayanıqlı inkişaf strategiyasına uyğun olaraq ölkənin xarici bazarlara çıxış imkanları çərçivəsində rəqabət mühitinin modernləşdirilməsinə yeni məzmunda yanaşılması;
- neft-kimya və neftmaşinqayirma sahələrinin göstəricilərinin təhlili əsasında məhsulların rəqabətqabililiyyətliyin artırılmasının qiymətləndirilməsi və bir sıra təkliflərin verilməsi;
- ölkədə sənaye istehsalında idxalı əvəz edə biləcək məhsulların rəqabətqabiliyyətinin artırılması meyarlarının müəyyən olunması;
- Azərbaycanda sənaye məhsullarının rəqabətqabiliyyətinin mövcud vəziyyətinin təhlil olunması və qiymətləndirilməsi;
- Azərbaycanın sənaye istehsalında müasir innovasiya texnologiyaları əsasında məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətlərinin müəyyən olunması.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasının Milli iqtisadiyyatı və onun ayrı-ayrı sahələri (sənaye istehsalı) təşkil edir.

**Tədqiqatın predmetini** milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin nəzəri və metodiki məsələləri və onun reallaşdırılması istiqamətləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** tədqiq olunan problemə dair klassik və müasir elmi araşdırmalar və konsepsiyalar, xarici və ölkə iqtisadçı alimlərinin əsərləri, Azərbaycan Respublikası Prezidentinin

fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qanunları və qanunvericilik aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərancamları, habelə digər mərkəzi icra hakimiyyəti orqanlarının hüquqi normativ sənədləri təşkil edir.

Tədqiqatın metodoloji əsasları həmçinin dialektik məntiqin, elmi abstraksiya və sistemli yanaşmanın prinsipləridir ki, sosial-iqtisadi prosesləri inkişafda və qarşılıqlı əlaqədə araşdırmağa imkan verir. Dissertasiya işinin nəzəri müddəalarının işlənməsi zamanı ümumelmi tədqiqat metodları: analiz və sintez, müqayisə və müşahidə, məntiqi mühakimə və sistemli təhlil metodları, habelə funksional və informasiya modelləşdirilməsi, verilənlər bazası nəzəriyyəsi və digər analitik metodlardan istifadə olunmuşdur.

**Tədqiqat işinin informasiya bazasını** ölkə iqtisadiyyatının rəqabət qabilliyətinin yüksəldilməsinə dair dövri elmi nəşrlərdə dərc olunmuş faktiki materiallar, hesabatlar, Azərbaycan Respublikası Dövlət Statisika və Dövlət Gömrük Komitələrinin, İqtisadiyyat Nazirliyinin və elmi-tədqiqat müəssisələrinin statistik icmalları, məqalələri və bülletenlərində verilən məlumatlar təşkil edir. Tədqiqat işinin yerinə yetirilməsində həmçinin "Azərkimya" İB və "Azneftkimyamaş" ASC-nin və onun müəssisələrinin məlumatlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat prosesində əldə edilmiş elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- Neftmaşınqayırma sahələrinin maliyyə dayanıqlığını xarakterizə edən göstəricilər sistemi mövcud və modellərə uyğun qiymətləndirilmiş və son nəticədə müxtəlif ssenarilər (pessimist, optimist) əsasında bir sıra təkliflər verilmişdir;

- Trend modelindən istifadə edilərək sənaye istehsalında məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsinə yönəldilmiş investisiya qoyuluşlarının iqtisadi artıma təsiri xarakterizə edilmiş və növbəti illər üçün bir sıra proqnozlar müəyyən edilmişdir;

- "Müqayisəli üstünlüklər" prinsipi əsasında ölkənin mövcud iqtisadi resurslarından daha səmərəli istifadə olunması əsasında, xərclərin minimumlaşdırılması və mənfəətin maksimallaşdırılması yolları müəyyən edilmiş, iqtisadiyyatın prioritet üstünlüyə malik olan sahələrinin inkişafına dair bir sıra təklif və tövsiyələr irəli sütülmüşdür;

- Ölkədə idxalı əvəz edə biləcək rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalına daha çox üstünlük verilməsinə dair təklif və tövsiyələr irəli sürülmüşdür;

- Azərbaycanın sənaye istehsalında müasir innovasiya modelləri əsasında məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsinin əsas istiqamətləri müəyyən edilmişdir;

- Ölkədə iqtisadiyyatin müasir inkişafı baxımından gələcəkdə qarşıya çıxa biləcək strateji iqtisadi təhlükələrdən qaçmaq məqsədilə və innovasiya sahibkarlığının perspektiv inkişafı üçün İnnovasiyaların İnkişafı Agentliyinin yaradılması təklif edilmişdir.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.** Azərbaycanın sosial-iqtisadi vəziyyətinin təhlili və ölkənin rəqabət qabiliyyətliliyinin artırılmasının bir sıra modellərinin tətbiqinin üstün cəhətləri müəyyən edilmişdir. Xüsusilə, tədqiqat prosesində Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının reallaşmasında rəqabət qabiliyyətini stimullaşdıran innovativ modellərdən istifadə olunması tövsiyə edilir.

Tədqiqat nəticəsində əldə olunmuş elmi nəticələr, verilmiş təkliflər ölkə iqtisadiyyatının rəqabət qabilliyətinin yüksəldilməsinə və milli iqtisadiyyatın səmərəliyinin artırılmasına zəmin yaradır.Dissertasiya işinin elmi müddəaları, alınmış əməli nəticələr və irəli sürülmüş təkliflər iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə həyata keçirilən proqramlarda, tədbirlərdə, elmi-tədqiqat işlərində və ali məktəblərdə müvafiq ixtisas fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** İşin nəticələri aşağıdakı elmi-praktiki konfranslarda məruzə edilmişdir: Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" IV Beynəlxalq konqresi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, Qafqaz Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyası "Regional idarəetmə: İnnovativ yanaşmalar və perspektiv imkanlar" mövzusunda Respublika Elmi-Praktik konfransı.

Dissertasiya mövzusuna dair ümumilikdə 10 məqalə və 3 tezis dərc edilmişdir. Tədqiqatın əsas nəticələri və təklifləri Bakı Maşınqayırma Zavodu QSC tərəfindən istifadə üçün qəbul edilmişdir (Arayış № 13/N.A, 15 noyabr 2017-ci il).

**Dissertasiyanın quruluşu və həcmi.** İş giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Ümumi həcmi 166 səhifə olan işdə 9 cədvəl, 8 şəkil, 3 diaqram və 131 addan ibarət istifadə olunmuş ədəbiyyat siyahısı verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti şərh olunmuşdur.

**"İqtisadiyyatin rəqabətqabiliyyətinin nəzəri-metodoloji əsasları" adlanan birinci fəsildə** rəqabətqabiliyyətlilik nəzəriyyələrinə dair elmi nəzəri baxışlar, rəqabətqabiliyyətliliyin müasir konsepsiyaları, ölkələrin rəqabət üstünlüklərinin inkişaf meyilləri tədqiq edilmişdir.

Rəqabət məfhumu ərəb dilindən götürülmüş, nəzarət etmək diqqət çəkmək, latın dilindən tərcümədə isə vəziyyət, toqquşma mənasında işlədilir.

Rəqabət prosesi dinamikdir və müəssisələrın sayı, eynicinsli əmtəələrin fərqləndirilməsi, bazara giriş-çıxış sərbəstliyi və s. göstəricilərlə səciyyələnir.

Ölkələrin rəqabətqabiliyyətliliyinin öyrənilməsində müxtəlif yanaşmalar mövcuddur: beynəlxalq rəqabət qabiliyyətinə nəzəri yanaşmalar, beynəlxalq rəqabər gücü modelinə korporativ yanaşmalar, klassik və neoklassik rəqabətçi yanaşmalar, müasir yanaşmalar (qurum anlayışı, Avstriya məktəbi və Keynisin yanaşması). Dissertasiyada bu yanaşmalar təhlil edilmiş, onların fərqli xüsusiyyətləri göstərilmişdir.

Tədqiqatda Dünya İqtisadi Forumu tərəfindən Qlobal Rəqabətqabiliyyəti İndeksinə daxil olan komponentlər şərh edilmiş, Qlobal Rəqabət Bacarığı İndeks çərçivəsi göstərilmişdir.

Bu bölmədə həmçinin məhsulun rəqabətqabiliyyətini xarakterizə edən parametrlər (texniki, iqtisadi və təşkilati) şərh edilmiş və bu sahədə müəssisənin strateji istifadə etməli olduğu istiqamətlər göstərilmişdir.

Qeyd olunmuşdur ki, rəqabət nəzəriyyələrinin başlıca məqsədi dünyada gedən inteqrasiya prosesləri kontekstində rəqabət münasibətlərinin səbəb və nəticələrini aşkar etməkdir.

Dissertasiyanın bu fəslində A.Smitin Xarici ticarət nəzəriyyəsi, onun şərhi və rəqabətqabiliyyəti ilə bağlılığı, inhisar rəqabəti və Pol Kruqmanın bu istiqamətdəki töhfəsi geniş şərh edilmişdir. P.Kruqmanın inhisar rəqabəti nəzəriyyəsində firmaların sayı, onların əmtəələrinin qiymətləri arasındakı qarşılıqlı əlaqələr əsas götürülür.

Bu bölmədə, M.Porter və onun ölkələrin rəqabət üstünlükləri nəzəriyyəsi geniş tədqiq olunmuş onun "rəqabət rombu" şərh edilmişdir. M.Porterə görə rəqabətqabiliyyətinə malik olmanın üç strategiyası (maya dəyərində likvidlik, fərqləndirmə, fokuslama) müəyyən olunmuş,

dissertasiyada bunların geniş şərhi verilmişdir. Burada həmçinin rəqabətqabiliyyətlilik piramidası, rəqabətqabiliyyətlilik prinsipləri (nisbilik, sərbəstlik, obyektivlik, dinamiklik) baxılmışdır. Rəqabətin üç səviyyəli təhlili, sahənin rəqabətqabiliyyəti də bu bölmədə tədqiq edilmişdir.

Bu fəsildə müqayisəli üstünlüklər, "Leonytev poradoksu", firma və bütövlükdə ölkənin milli iqtisadiyyatının rəqabətqabiliyyətinə dair M.Porter yanaşması da öz əksini tapmışdır.

Göstərilmişdir ki, bütün bunlarla yanaşı ölkənin rəqabət statusu anlayışına dair yanaşma yoxdur. Fikrimizcə, ölkənin rəqabət statusu beynəlxalq iqtisadi rəqabətdə onun mövqeyinin sistemli xarakteristikasıdır və beynəlxalq əmək bölgüsündə ölkənin ixtisaslaşmasının strateji dəyəri, habelə ixtisaslaşmanı təmin edən amillərin strateji dəyəri ilə müəyyən olunur.

Bu fəsildə rəqabətqabiliyyətliliyin müasir konsepsiyaları nəzərdən keçirilmiş, göstərilmişdir ki, rəqabətqabiliyyəti üzrə ölkənin reytinqini müəyyən edən təşkilatlar 150-dən çox kəmiyyət və keyfiyyət göstəricilərini əsas götürürlər.

Fikrimizcə ölkə iqtisadiyyatı dünyada o vaxt rəqabətqabiliyyətli olur ki, ölkənin iqtisadi institutları və siyasəti dayanıqlı və sürətli artımı təmin edir.

Dayanıqlı proses termini burada həlledici əhəmiyyət kəsb edir. Bu termin uzunmüddətli planda rəqabətqabiliyyətinin stabilliyini xüsusi vurğulayır. Bu isə təhsil, səhiyyə, cəmiyyətdə dəyərlər sistemi və cəmiyyət üzvlərinin motivasiyası kimi vacib sahələrdə təzahür edir.

Rəqabətqabiliyyətliliyə dair müxtəlif konsepsiyalar (makroiqtisadi, neokorporotiv, kaolisiyalı və sosial-dövlət) da bu bölmədə tədqiq olunmuşdur.

Dissertasiyanın bu fəslində ölkələrin rəqabət üstünlüklərinin inkişaf meyilləri şərh edilmiş, ayrı-ayrı ölkələrin bu sahədəki yanaşmaları verilmişdir. Göstərilmişdir ki, milli iqtisadiyyatların rəqabətqabiliyyətindən danışarkən, ancaq geoiqtisadi xarakter meyillərindən çıxış etmək heç də doğru olmazdı. Əsl həqiqətdə, rəqabət sosial-iqtisadi bir hadisə kimi çox dərin səbəblərə malikdir və onları nəzərə almaq lazımdır.

Dissertasiya işinin **"Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətinin mövcud vəziyyəti və inkişaf meyilləri" adlanan ikinci fəslində** Azərbaycanda sənaye məhsulunun rəqabət qabiliyyətliliyinin mövcud vəziyyətinin təhlili, iqtisadiyyatın sənaye sahələrinin strukturunun dəyişməsinin xüsusiyyətləri, iqtisadiyyatin rəqabətqabiliyyətinin yüksəldilməsinin təşkilati-iqtisadi mexanizmləri tədqiq edilmişdir.

Göstərilmişdir ki, Azərbaycanın sürətli iqtisadi inkişafı, zəngin təbii sərvətləri və qlobal bazara çıxış imkanları, əlverişli investisiya mühiti diqqət mərkəzindədir. Azərbaycan Xəzər və Qara dənizləri arasında geosiyasi və geostrateji bir məkandır, keçmiş "İpək Yolu"nun üstündə yerləşir və bu baxımdan çox böyük əhəmiyyətə malikdir. Bütün bunlar nəinki, ölkədə sənayenin, həm də kənd təsərrüfatı, tikinti, turizm, infrastruktur obyektləri baxımından əhəmiyyətlidir. Bu məkanda Azərbaycanda Xüsusi İqtisadi Zona, Sənaye Park və məhəllələrinin yaradılması planları vaxtında atılmış addımlardır.

Ölkənin Ümumi Daxili Məhsulunda 2015-2016-cı illərdə 745,8 mln. man (və ya 1,38%), qeyri neft sektorunda isə 5,6% artım müşahidə olunmuşdur. Qeyri-neft sektorunun ÜDM-də payı ilbəil artır. Belə ki, əgər 2015-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı 52,7% idisə, 2016-cı ildə bu 58,3% olmuş və ya 5,6% artmışdır ki, bu da ölkədə gedən islahatların tələblərinə cavab verir. Təhlil göstərir ki, 2011-ci ildə ÜDM-in 60%-dən çoxu istehsal sahələri, o cümlədən 46%-i sənayenin, sənayenin strukturunda isə 73% mədənçıxarma, 20,2% emal sənayesi və digər sahələrin payına düşür. Dissertasiyanın bu fəslində Azərbaycanın son beş ildə rəqabətqabiliyyətinə dair göstəricilər təhlil edilmiş, göstərilmişdir ki, "Qlobal Rəqabət İndeksi" (QRİ) müxtəlif ölkələrin iqtisadi rəqabət qabiliyyətini müəyyən edir. Buraya müxtəlif meyarlar, o cümlədən ölkənin makroiqtisadi göstəriciləri, infrastruktur, təhsil, rabitə və digər sahələrin inkişaf səviyyəsi aiddir.

Müəyyən olunmuşdur ki, 2010-cu ildə Davos İqtisadi Forumunun QRİ-ə görə Azərbaycan 150 ölkə arasında 57-ci yerdə, bir il sonra isə 142 ölkə arasında 55-ci yerdə bərqərar olmuşdur. Bu göstəriciyə görə iki pillə irəliləyən ölkəmiz Türkiyə, Rusiya, Slovakiya, Qazaxıstan və digər ölkələri geridə qoymuşdur. Digər tərəfdən, indeksin altı reytinqinə görə Azərbaycan makroiqtisadi mühit üzrə 16-ci, əmək bazarlarının effektivliyi üzrə isə 14-cü mövqeyi tutmuşdur.

Dünya İqtisadi Forumunun 2013-2014-cü il hesabatına görə Azərbaycan iqtisadi rəqabətqabiliyyətinə görə 148 ölkə arasında 39-cu yeri tutmuş, bu isə onun mövqeyinin 7 bənd yaxşılaşmasına işarə edir.

Buna bir neçə amil təsir etmiş, onların birincisinə "ASAN xidmət" mərkəzinin fəaliyyətini aid etmək olar. Belə ki, adı çəkilən reytinq hazırlanarkən ən müxtəlif göstərici və meyarlar nəzərə alınır. Burada dövlət xidmətlərinin inkişafı və bu xidmətlərin göstərilməsinin asanlaşdırılması, xüsusi əhəmiyyət kəsb edir.

Buarada bir məqamı qeyd etmək lazımdır, “ASAN xidmət” hazırda daha çox fiziki şəxslərə aid xidmətlər göstərir. Lakin əminliklə deyə bilərik ki, yaxın perspektivdə dövlət xidmətlərinin ümumilikdə bir neçəsi, xüsusilə “ASAN xidmət” vasitəsilə həyata keçiriləcək və bunun müsbət təsiri daha çox hiss ediləcəkdir.

Milli iqtisadiyyatın reytinqdə mövqeyinin yaxşılaşmasına ölkədə İnformasiya Kommunikasiya Texnologiyalarının inkişafı, xaricdə Azərbaycan biznesinin nüfuzunun yaxşılaşdırılması və s. amillər də müsbət təsir göstərmişdir.

QRİ-nin 2017-2018-ci il hesabatına görə Azərbaycan 137 ölkə arasında 37-ci yerdən 35-ci yerə qalxıb və 2 pillə irəliləmişdir.

Bütün bunların fonunda dissertasiyanın bu fəslində Azərbaycanın sənaye məhsulu, mədənçıxarma sektoru, qeyri-neft sektoru, nəqliyyat informasiya və rabitə, pərakəndə ticarət, ödənişli xidmət, xarici ticarət, istehlak məhsulları və xidmətləri, dövlət büdcəsi, kredit portfeli, makroiqtisadi göstəricilər, əsas kapitala yönəlmiş vəsait və s. geniş tədqiq və təhlil edilmişdir.

Müəyyən olunmuşdur ki, ölkədə sənaye istehsalının sahə strukturuna nəzər yetirsək, mədən sənayesinin ümumi istehsalın 73%, emal sənayesinin 20,2% təşkil etdiyini görərik (Şək.1.). Emal sənayesinin payının aşağı olması öz növbəsində iqtisadi artım tempini azaldır. Amma bu o deməkdir ki, xammal ixracı azalır. Bu, müsbət tendensiyadır və neftin qiymətinin aşağı düşməsilə əlaqədardır.




**Şək.1. Sənaye istehsalının sahə strukturu, 2016-cı il**

.

Sənayenin sahə strukturunda mədən sənayesi, onun da tərkibində xam neft və təbii qaz hasilatı bütün sənaye məhsulunun 96,9%-ni, mədən sənayesi məhsulunun isə 95%-ni təşkil edir (Şək. 2.).




**Şək. 2. Mədənçıxarma sənayesinin strukturu**

Bu fəsildə iqtisadiyyatın sənaye sahələrinin strukturunun dəyişməsi xüsusiyyətləri tədqiq edilmiş, göstərilmişdir ki, sənaye sahəsinin əhəmiyyətini artıran səbəblərdən biri də post-sənaye erasının başlanması və bilik iqtisadiyyatının formalaşmasıdır ki, bu da üç meyillə şərtləndirilir: mikroelektronika və informasiya texnologiyalarının inkişafı; aktiv urbanizasiya və qloballaşma.




**Şək. 3. Sənaye istehsalının mülkiyyət formasına görə strukturu, %-lə**

Bütün bunların fonunda, bu fəsildə sənaye siyasətinin təşkilati prinsiplərinin formalaşdırılması istiqamətləri verilmiş, sənayedə struktur dəyişikliklər, sənaye strukturu ilə paralel rəqabətqabiliyyətliliyə təsir edən amillər göstərilmişdir.

Müəyyən olunmuşdur ki, 2012-2016-cı illərdə cari qiymətlərlə əlavə dəyər 4,6 mln. man. (və ya 17,1%), ümumi mənfəət 5,52 mln. man. (və ya 21,8%), xalis mənfəət isə 6,55 mln. man. (və ya 26,7%) azalmışdır. Bu əsasən dünya bazarlarında neftin qiymətində baş verən təbəllüadlarla əlaqədar olmuşdur. Bununla belə, təhlil dövründə muzdlu işçilərin orta illik sayı 5,1 min nəfər (və ya 0,28%) orta aylıq nominal əmək haqqı 332,5 manat (və ya 51,1%), ilin axırına kimi əsas fondların dəyəri 37,97 mln.man. (və ya 81,2%) artmışdır.

Təhlil olunan 2004-2016-cı illər ərzində ölkəmizdə ÜDM 3 dəfə, adambaşına ÜDM 2,7 dəfə, o cümlədən sənayedə 2,7 dəfə, kənd təsərrüfatında 1,3 dəfə, tikintidə 3,2 dəfə, nəqliyyatda 2,3 dəfə, informasiya və rabitə sektorunda 6,4 dəfə, ticarətdə isə 2,6 dəfə artmışdır.

Bu fəsildə sənaye istehsalının mülkiyyət formasına görə strukturu, sənayedə əsas kapitala yönəldilən investisiyalar, onların "trend" modelləri verilmişdir.

Bu bölmədə "Etilen-Polietilen" zavodunun texniki-iqtisadi göstəriciləri, bu zavodda istehsal olunan məhsulların satış coğrafiyası təhlil olunmuşdur. Göstərilmişdir ki, 2011-2016-cı illərdə "Etilen-Polietilen" zavodu üzrə məhsul istehsalı 59,3 mln. man. (və ya 38,2%), məhsul göndərişi və ya xidmətlər 56,2 mln. man. (və ya 35,9%), bir nəfərə düşən məhsul istehsalı 57,33 min man. (və ya 1,9 dəfə), bir işçiyədüşən əmək haqqı isə 298,32 man. (və ya 77,2%) artmışdır.

Bu isə ona dəlalət edir ki, sənayenin rəqabət qabiliyyətinin artırılması istiqamətində atılacaq ən əsas addımlardan biri, rəqabət üstünlüyünü təmin edən sahələrə kapitalın yönəldilməsi çox vacibdir.

Bu bölmədə ortamüddətli perspektivdə sənayenin rəqabətqabiliyyətinin yüksəldilməsinin məqsədlərinin formalaşması istiqamətləri göstərilmiş, rəqabətə davamlılıq baxımından sənaye strukturu yaradılmasına aid tədbirlər tərəfimizdən təklif olunmuşdur.

Klasterlərin inkişaf modeli, rəqabət siyasəti baxımından ölkədə həyata keçirilən tədbirlər geniş şərh edilmişdir.

Bu fəsildə iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsinin təşkilati-iqtisadi mexanizmi tədqiq edilmiş, rəqabətqabiliyyətliliyin səviyyəsinin xarakteristikası, ölkənin rəqabətqabiliyyətini müəyyən edən amillər göstərilmişdir.

Qeyd olunmuşdur ki, ekspertlərin fikrincə ölkədə xammal resursları hasilat və onun ixracı yolu strateji nöqteyi nəzərindən arzuolunan perspektiv vəd etmir. Belə ki, bunlara tələbat azalmaqla yanaşı, yüksək kapital tutumlu sahələrdir. Bütün bunlar isə ölkənin perspektiv inkişafına öz mənfi təsirini göstərir. Bunları nəzərə alaraq bu fəsildə ölkə iqtisadiyyatının inkişafına təsir göstərən üç məqam tərəfimizdən qeyd olunub və onların şərhi verilmişdir.

Bu bölmədə "Made in Azerbaijan" brendi, iqtisadiyyatın innovasiyalı inkişaf modelinə keçidi, təşkilati-iqtisadi mexanizmin bir istiqaməti kimi, innovasiya sahibkarlığının inkişafında dövlətin birbaşa iştirakının mümkün bir üsulu kimi İnnovasiyaların İnkişafı (və ya təşviqi) Agentliyinin yaradılması və onun funksiyaları tərəfimizdən təklif olunmuşdur.

Burada həmçinin vençur kapitalı, ona tələbin olmamasının səbəbləri, innovasiyaların vençur maliyyələşməsinin formalaşdırılması da geniş tədqiq olunmuşdur.

**"İqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri və onun rəqabətliliyinin yüksəldilməsi yolları" adlı üçüncü fəsildə** Azərbaycanda müasir rəqabət mühitinin modernləşdirilməsinin perspektiv imkanları, sənaye istehsalının strukturunun təkmilləşdirilməsinin məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsinə təsiri, sənaye istehsalında müasir innovasiya modelləri əsasında məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətləri tədqiq edilmişdir.

Göstərilmişdir ki, Azərbaycanın ixrac strukturu aşkar xammal xarakterlidir. Belə ki, ümumi ixracatda yanacaq-enerji resurslarının payı 60%-ə yaxın, xam neft və qazın ixracı 50%-dən yuxarıdır. Bununla yanaşı, maşın və avadanlıq ixracının aşağı fiziki və dəyər həcmləri, ixrac strukturunda onun cüzi payı nəzər-diqqəti cəlb edir. Son onillikdə maşınqayırma məhsulunun ixracı artmamış və əksinə, bir qədər azalmışdır. Ölkənin ixrac strukturunda maşın və avadanlıqların payı 2000-ci ildəki 11%-dən, indiki 6%-ə enmişdir. Dünya standartlarına görə bu göstərici, xüsusən də digər ölkələrin analoji göstəricilərilə müqayisə etdikdə, əsaslı olaraq narahatlıq doğurmaya bilməz. Belə ki, 2016-cı ildə maşınqayırma məhsulunun ixracı Yaponiyada 95%, İsveçrədə 92%, Tayvanda 92%, Cənubi Koreyada 90%, Honkonqda 90% təşkil etmişdir. Orta hesabla, məcmu dünya ixracında, hətta zəif inkişaflı ölkələri də nəzərə almaqla maşın və avadanlığın xüsusi çəkisi 30-35% təşkil edir. Azərbaycan bu göstəriciyə görə dünyada 64-cü yeri tutur.

Azərbaycan ÜDM-də hasilat sənayesinin böyük paya malik olması, əksinə, maşın və avadanlıq ixracının cüzi payı dünya bazarında

maşınqayırma məhsullarımızın əsas kütləsinin aşağı rəqabətqabiliyyətindən xəbər verir. Həmçinin, ölkənin emal sənayesinin ixracında yüksək texnoloji məhsul istehsalının payı da çox kiçikdir.

Ölkənin rəqabət üstünlüyü, fəal istismar edilən mineral xammal resurslarıdır. İkinci qrup rəqabət üstünlükləri müqayisədə bəzi istehsal amillərinin bir qədər ucuz olması ilə əlaqədardır. Ölkədə miqyasına görə əhəmiyyətli istehsal güclərinə malik iri sənaye müəssisələri vardır. Bunlar əsasən neft maşınqayırma və metal emalı müəssisələridir, onların bir çoxu ərazi, avadanlıq və personalını qoruyub saxlaya bilmişdir.

Azərbaycanda həmçinin, çoxsaylı, ucuz və sərbəst işçi qüvvəsi var ki, bu da dünya bazarının aşağı qiymətləri seqmentində yer tutmaq üçün mühüm üstünlükdür.

Göstərilmişdir ki, son zamanlar enerji resurslarının bahalaşması ilə əlaqədar dəyər rəqabət üstünlüklərinin itirilməsi meyli müşahidə olunur, çünki dünya və daxili qiymətlərin müntəzəm olaraq yaxınlaşması prosesi gedir. Bu isə istehsal xərclərinin artmasına səbəb olur və deməli, rəqabət üstünlüyünün itirilməsinə gətirib çıxarır.

Rəqabət üstünlüyünün üçüncü qrup amilləri uzunmüddətli perspektivdə Azərbaycana rəqabətqabiliyyəti vəd edən yüksək texnologiyalardır. Bunlar ölkənin fundamental və tətbiqi elmlərinin nailiyyətlərinə söykənən və dünya analoqlarından geri qalmayan innovasiyalardır. Lakin bu qrup rəqabət üstünlükləri potensial xarakter daşıyır və hazırda çox zəif istifadə olunur.

Tədqiqat nəticəsində dünya iqtisadiyyatında Azərbaycanın rəqabət statusunu kafi qiymətləndirmənin nəticələri verilmişdir.

Azərbaycanda 2005-ci ildə 100 aparıcı alimin iştirakı ilə elmi potensialın ekspertizası aparılmış, ümumən elm və təhsilin səviyyəsi yüksək qiymətləndirilmişdir. Ekspert qiymətləndirmələri neft-kimya texnologiyaları sahəsində aparılan tədqiqat və işləmələrin yüksək səviyyəsini qeyd etmiş, eyni zamanda tədqiqatların çox geniş şəkildə əhatə etdiyi, zəif koordinasiya olunduğu və onların iqtisadi maraqlarını tam əks etdirmədiyi qeyd olunmuşdur. Bir sıra sahələrdə elmi-texniki işləmələr dünya səviyyəsinə yaxın qiymətləndirilmişdir.

Bu fəsildə elm sahəsində olanların yaş tərkibi, "beyin axını" və s. məsələlər də tədqiq olunmuşdur. Göstərilmişdir ki, ölkələrin rəqabətqabiliyyəti uzun dövr ərzində cəmiyyətdə gedən mürəkkəb sosial-iqtisadi proseslərin nəticəsidir, onun həlledici şərti isə cəmiyyətin intellektual kapitalının qabaqlayıcı artırılması ilə bağlıdır. Fikrimizcə bu proses üç amilin təsiri ilə baş verir: maddi tələbatların ödənilməsinin

yüksək səviyyəsi; innovasiyaların tətbiqinin sürəti və intellektual kapital "sahiblərinin" özlərini reallaşdırmaq, yüksək sosial statusa nail olmaq imkanları. Bu məsələlər işdə geniş tədqiq olunmuşdur.

Bu fəsildə sənaye istehsalının strukturunun təkmilləşdirilməsinin məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsinə təsiri tədqiq edilmiş, göstərilmişdir ki, sahə strukturu hökmən elmtutumlu sahələrin payının artırılmasının tətbiqini tələb edir. İqtisadi diversifikasiya ölkə iqtisadiyyatının təbii resurslardan və hasilat sənayesindən asılılığını azaltmağa doğru yönəldilməlidir. Burada sahənin rəqabətqabiliyyətlilik amilləri verilmiş, sahənin rəqabətqabiliyyətinin qiymətləndirilməsinin göstəricilər sistemi qeyd olunmuşdur.

Burada iqtisadi siyasətin və dünya təsərrüfatına inteqrasiyanın aspektləri üzrə çıxardığı üç qalobal iqtisadi məsələ, iqtisadi siyasət çərçivəsində həyata keçirilməli zəruri hədlər də göstərilmişdir. Həmçinin qeyd olunmuşdur ki, innovasiyalar, sənaye məhsulunun rəqabətqabiliyyətinin vacib şərtidir, innovasiya sistemi və infrastrukturun əhatə etdiyi istiqamətlərdir. Buna müvafiq olaraq innovasiya siyasətinin əsas vəzifələri tərəfimizdən qeyd olunmuş, innovasiya siyasətindəki fəaliyyət növləri, innovasiya siyasətinin reallaşdırılması üsulları göstərilmişdir.

Bu bölmədə rəqabət qabiliyyətinin yüksəldilməsində sahibkarlığın imkanları, təşkilati-iqtisadi mexanizm baxımından dövlət sahibkarlığının formalaşması prosesində funksiyaları geniş şərh edilmişdir.

Dissertasiyanın bu fəslində sənaye istehsalında müasir innovasiya modelləri əsasında məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətləri də tədqiq olunmuşdur. Göstərilmişdir ki, dünyanın inkişaf meyilləri qarışıq cəmiyyətin formalaşması ilə səciyyələnir ki, tərəfimizdən bu cəmiyyətin əsas fərqli cəhətləri göstərilmişdir. Qeyd olunmuşdur ki, belə cəmiyyətin yaradılmasına yaxın gələcəkdə Azərbaycanın sosial-iqtisadi inkişafının baş məqsədi kimi baxmaq olar ki, işdə bu nəticəyə gəlmənin əsasları göstərilmişdir.

Neftmaşınqayırma sənayesi haqqında yuxarıda qeyd etmişdik. Bu bölmədə "Azneftkimyamaş" ASC-nin neftmaşınqayırma zavodlarının fəaliyyətini xarakterizə edən göstəriciləri verilmiş, göstərilmişdir ki, 2014-2016-cı illərdə bütövlükdə əmtəəlik məhsul 7,8 mln.man. (və ya 32,7%), reallaşdırılmış məhsul isə 8,6 mln.man (və ya 37,8%) azalmışdır. Xüsusi çəkisinə görə Bakı Neft Maşınqayırma zavodu əmtəəlik və reallaşdırılmış məhsul baxımından daha böyükdür.

Bazar münasibətləri şəraitində təsərrüfat subyektinin müvəffəqiyyətlə fəaliyyət göstərməsi baxımından, sənaye müəssisələrinin iqtisadi dayanıqlığının təmin edilməsi mühümdür. Müəssisənin, o cümlədən "Azneftkimyamaş" ASC-nin fəaliyyəti üçün strategiyanın işlənməsinin müvəffəqiyyəti, özünün fəaliyyətinin keçmiş və indiki vəziyyətini qiymətləndirmək, zəif və güclü tərəflərini təyin etməkdən asılıdır. Bu məqsədlə ilk növbədə müəssisənin ödəmə qabiliyyəti dərəcəsi və maliyyə vəziyyəti müəyyən edilir.

Dissertasiyada, Bakı Neft Maşınqayırma zavodunun 2016-cı il maliyyə hesabatına əsasən maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinin göstəricilər sistemi hesablanmışdır. Burada əmlak vəziyyətini, likvidliyi, maliyyə dayanıqlığının, işgüzar aktivliyin, rentabelliyin qiymətləndirilməsi istiqamətində çoxlu sayda göstəricilər sistemi tərəfimizdən qiymətləndirilmişdir.

Bu fəsildə həmçinin tərəfimizdən Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətinin yüksəldilməsi baxımından pessimist və optimist ssenarilər işlənmiş, onların geniş şərhi verilmiş, bu ssenarilərin reallaşdırılmasının subyektiv çətinlikləri göstərilmişdir.

Dissertasiyada iqtisadiyyatın inkişafının təkamül strategiyasının Azərbaycan üçün məqsədəuyğun olmaması əsaslandırılmış, göstərilmişdir ki, mövcud istehsal sisteminin modernizasiyası və ya bu sistemi yaxşılaşdırmaq cəhdlərində deyil, radikal texnoloji innovasiyaların tətbiqində axtarmaq lazımdır.

Tədqiqat prosesində əldə olunmuş nəticə və təklifləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bazar iqtisadiyyatı şəraitində rəqabət qabiliyyəti hərəkətverici qüvvə kimi çıxış edir, eyni zamanda bazarın əsas mexanizmlərindən biridir. Bu baxımdan Azərbaycanda bazar münasibətlərinin formalaşması şəraitində iqtisadiyyatın rəqabətqabiliyyətli iqtisadiyyata çevrilməsi strateji məqsəddir. Belə ki, dövlətin həyata keçirdiyi iqtisadi siyasət istiqamətlərindən strateji hədəf kimi rəqabətə davamlı məhsulların istehsalına daha çox üstünlük verilməsi nəzərdə tutulur. Bu prinsip əsasında tədqiqat prosesində sənaye, kənd təsərrüfatı, tikinti və digər istehsal sahələrində rəqabət qabiliyyətli məhsulların istehsalı və xarici bazarlara çıxarılması imkanları araşdırılmış və bir sıra konkret təkliflər irəli sürülmüşdür: Həmin təkilfləri aşağıdakı kimi ifadə etmək olar:

a) Daha çox idxalı əvəz edə biləcək məhsulların istehsalına və onların rəqabət qabiliyyətinin artmasına xüsusi diqqət yetirilməlidir;

b) “Müqayisəli üstünlüklər” prinsipi əsasında ölkənin mövcud iqtisadi resurslarından daha səmərəli istifadə olunması əsasında, xərclərin minimumlaşdırılması və mənfəətin maksimallaşdırılması yolları müəyyən edilməlidir;

c) Azərbaycan məhsullarının ilk növbədə milli və regional bazarlarda rəqabətə davamlı məhsullar kimi özünü göstərməsi, sonra isə MDB məkanında, yaxın və uzaq ölkələrin bazarlarında təmsil olunması imkanlarının təmin olunması;

d) Ölkədə sənaye və digər istehsal sahələrində rəqabət qabiliyyətli məhsulların istehsal olunması üçün prioritet üstünlüyə malik olan sahələrin inkişafına xüsusi diqqət yetirilməsi.

2. Dövlətin sənaye siyasətinə uyğun olaraq milli və regional iqtisadi səviyyədə sənaye istehsalında məhsulların rəqabət qabiliyyətinin artırılmasının güclü maddi-texniki bazası yaradılması və bu prosesi idarə edən yüksək səviyyəli ixtisaslaşdırılmış işçi qüvvəsi formalaşdırılmalıdır.

3. Xüsusilə Azərbaycanda sənaye məhsulları istehsalına daha çox zərurət yarandığını nəzərə alaraq onun texnika və texnologiyasının əsaslı surətdə modernləşdirilməsi və yenidən qurulması prosesində dövlət tərəfindən hər tərəfli stimullaşdırıcı dəstək verilməli və tezliklə onun həyata keçirilməsinə başlanmalıdır;

4. Tədqiqat prosesində aparılan təhlildə belə bir nəticəyə gəldik ki, ölkənin dayanıqlı və rəqabət qabiliyyətli inkişafını təmin etmədən iqtisadi artıma nail olmaq mümkün deyildir. Bütün sənaye istehsalı və onun ayrı-ayrı sahələri iqtisadiyyatda aparıcı rola malik olduğuna görə onların strukturunda və idarə olunmasında əsaslı dəyişikliklər aparılmalıdır. Belə ki, həmin sahələrdə müasir tələblərə cavab verən struktur dəyişikliklərin aparılması tezliklə daxili və xarici bazarlara çıxa biləcək rəqabət qabiliyyətli məhsulların istehsalına zəmin yaradacaqdır;

5. Gələcək dövr üçün sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılmasının regional səviyyədə də öz həllini tapması həm iqtisadi artıma bir başa təsir göstərə bilər, həm də əhalinin məşğulluq səviyyəsinin artmasında öz rolunu göstərmiş olar. Bu proses məhsuldar qüvvələrin ərazi üzrə səmərəli formada yerləşdirilməsində öz əksini tapır;

6. Tədqiqat prosesində yumşaq və “asta” innovasiya modelindən istifadə olunaraq ölkənin rəqabət qabiliyyətinin yaxşılaşdırılmasına təsiri imkanları araşdırılmış və “asta” innovasaiya inkişaf trayektoriyasına çıxış yolları müəyyən olunmuş, son nəticədə onun üstünlüklərindən istifadə olunması tövsiyə edilmişdir;

7. Ölkə iqtisadiyyatın mühüm sahəsi kimi Neftmaşınqayırma zavodunun maliyyə təsərrüfat fəaliyyətini səciyyələndirən və müəssisənin iqtisadi potensialını təmsil edən göstəricilər sistemi, müəssisənin əmlak vəziyyəti, likvidlik səviyyəsi, maliyyə dayanıqlığı vəziyyəti, rentabellik səviyyəsi, işgüzar aktivliyin qiymətləndirilməsi bloklarına ayrılmış və beynəlxalq təcrübədə qəbul olunmuş metodiki yanaşmaya əsasən qiymətləndirilmişdir. Rəqabətqabiliyyəti baxımından bu müəssisənin qeyri-qənaətbəxş olduğu müəyyənləşdirilmişdir;

8. Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətinin yüksəldilməsi konsepsiyasına uyğun olaraq, dissertasiyada müxtəlif inkişaf ssenariləri (pessimist,optimist), onların iqtisadiyyatın inkişaf etdirilməsindəki rolu müəyyən edilmiş, qərarların qəbulu üçün bunların nəticələrindən istifadə təklif edilmiş və təkamül strategiyasının Azərbaycan üçün məqsədə müvafiq olmadığı aşkar edilmişdir;

9. Dissertasiyada yanacaq-enerji sahəsinin bu günkü vəziyyəti və iqtisadiyyatın inkişafı baxımından respublikanın gələcəkdə qarşılaşa biləcəyi üç strateji təhlükə aşkar edilmiş və bu vəziyyətdən çıxma yolları müəyyən olunmuşdur;

10. İnnovasiya sahibkarlığının inkişafında dövlətin birbaşa iştirakını təmin etmək üçün İnnovasiyaların İnkişafı Agentliyinin yaradılması təklif edilmiş, onun funksiyaları göstərilmişdir;

11. Vençur maliyyələşmə sistemi, xüsusilə də radikal innovasiyalara yönələn sistemin formalaşmadığı aşkar edilmiş, vençur kapitalına tələbin olmaması səbəbləri müəyyən olunmuş, vençur maliyyələşmə sisteminin formalaşdırılması üçün tədbirlər planı təklif edilmişdir.

Disertasiya işinin mövzusu üzrə aşağıdakı elmi məqalələr və tezislər dərc edilmişdir:

1. Antiböhranlı idarəetmə zamanı sənaye müəssisələrində strategiya və taktikanın seçilməsi məsələləri. Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi əsərləri №1. Bakı, 2014, səh.33-37, həmmüəlliflə.

2. Azərbaycan sənaye müəssisələrində rəqabət qabiliyyətli məhsul istehsalının artırılması problemləri. AMEA, İqtisadiyyat İnstitutunun "Elmi əsərlər" jurnalı, Bakı, 2015, № 3, səh. 89-93.

3. Qloballaşan dünya və müasir Azərbaycan. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" IV Beynəlxalq konqresinin materialları. Qafqaz Universiteti. Bakı, 2015, səh.428-432, həmmüəlliflə.

4. Müasir şəraitdə Azərbaycan Respublikasında məhsul istehsalının bəzi sosial-iqtisadi məsələləri. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti. Bakı, 2015, səh.528-529.

5. Azərbaycanın sənaye müəssisələrində rəqabət qabiliyyətli məhsul istehsalına təsir edən amillər. Azərbaycan Respublikasının Prezidenti yanında idarəçilik akademiyası. "Regional idarəetmə: İnnovativ yanaşmalar və perspektiv imkanlar" mövzusunda Respublika Elmi-Praktik konfransın materialları, Bakı, aprel 2015. səh. 133-136.

6. Конкурентоспособность продукции промышленных предприятий и методы их определения. журнал Экономика и предпринимательство, Москва, 2017, №8, с.705-707.

7. Качество продукции и диогностика устойчивого развития нефтемашиностроителных предприятий. Нефть, газ и бизнес, №2, Москва, 2017, с.62-67.

8. Məhsulun keyfiyyətinin iqtisadi aspektləri. Azərbaycan Neft Təsərrüfatı jurnalı, №7, Bakı, 2017, s.74-77.

9. Məhsulun keyfiyyəti və ona təsir edən amillər. Azərbaycan Neft Təsərrüfatı, №11, Bakı, 2017, s. 56-60.

10. Azərbaycanın intellektual potensialı və rəqabət statusu : vəziyyəti və meyilləri. "İpək yolu", Azərbaycan Universitetinin elmi jurnalı, №2, Bakı, 2017, s.101-108.

11. Rəqabət strategiyası və onun təhlili. "İpək yolu", Azərbaycan Universitetinin elmi jurnalı, №3, Bakı, 2017, s.114-125.

12. Rəqabət münasibətlərinə təsir edən amillər və onun qiymətləndirilməsi. Azərbaycan Elmi Tədqiqat Kənd təsərrüfatının İqtisadiyyat və təşkili İnstitunun Elmi əsərləri, №2, Bakı, 2017, s.130-134.

13. Azərbaycan iqtisadiyyatının strukturunun yaxşılaşdırılması istiqamətləri. Azərbaycan Elmi Tədqiqat Kənd təsərrüfatının İqtisadiyyat və təşkili İnstitunun Elmi əsərləri, №3, Bakı, 2017, s. 156-162.

**Садыхова Сабина Сабир кызы**

**Организационно-экономический механизм повышения конкурентоспособности экономики Азербайджана**

**(на примере промышленного производства)**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, выводов и списка использованной литературы. Во введении обоснованы актуальность темы, определены цель и задачи исследования, изложена научная новизна, практическая и теоретическая значимость работы.

В первой главе рассмотрены научно-теоретические взгляды по теории конкурентоспособности, современные концепции конкурентоспособности, тенденции развития конкурентного преимущества страны.

Во второй главе проанализированы современное состояние конкурентоспособности промышленной продукции Азербайджана, особенности изменения структуры промышленной отрасли экономики, рассмотрены организационно - экономические механизмы повышения конкурентоспособности экономики.

В третьей главе выявлены возможности перспектив модернизации современной конкурентной среды в Азербайджане, влияние совершенствования структуры промышленного производства на повышение конкурентоспособности продукции в Азербайджане, направления повышения конкурентоспособности продукции в промышленном производстве на основе современной инновационной модели.

В заключении сформулированы результаты и предложения по повышению эффективности конкурентоспособности экономики Азербайджана.

**Sadigova Sabina Sabir kizi**

## Organizational and economic mechanism to improve the competitiveness of the economy of Azerbaijan

## (on the example of industrial production)

## Resume

The disertation consists of an introduction, three chapters, conclusions and bibliography. In the introduction, the relevance of the topic is substantiated, the purpose and objectives of the research are determined, the scientific novelty, practical and theoretical significance of the work are described.

The first chapter considers the scientific and theoretical views on the theory of competitiveness, modern concepts of competitiveness, trends in the development of the competitive advantage of the country.

The second chapter analyzes the current state of competitiveness of industrial products in Azerbaijan, the peculiarities of changes in the structure of the industrial sector of the economy, and considers the organizational and economic mechanisms for improving the competitiveness of the economy.

The third chapter identifies the prospects for the modernization of the modern competitive environment in Azerbaijan, the impact of improving the structure of industrial production on improving the competitiveness of products in Azerbaijan, and the direction of increasing the competitiveness of products in industrial production based on the modern innovation model.

In conclusion, the results and proposals for improving the efficiency of competitiveness of the Azerbaijani economy are formulated.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**САДЫХОВА САБИНА САБИР кызы**

# Организационно-экономический механизм повышения конкурентоспособности экономики Азербайджана (на примере промышленного производства)

**5308.01 – "Общая экономика"**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ – 2018**